*UOT 339.94*

***G.R.Şirəliyeva***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*gulnara.shiraliyeva@mail.ru*

# AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİ BÜTÖVLÜYÜNÜN BƏRPASI İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ GÜNDƏLİYİNDƏ (1991-2010-cu illər)

***Açar sözlər:*** *İƏT, Ermənistan-Azərbaycan münaqişəsi, beynəlxalq təşkilatlar, müsəlman ölkələri, erməni təcavüzü*

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı faktını təsdiq edən, Azərbaycanı açıq müdafiə edən ilk beynəlxalq qurum oldu. 1994-cü ildə Kasablanka şəhərində keçirilən 7-ci sammitdə İƏT tarixində ilk dəfə olaraq Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı siyası qətnamə qəbul edildi. İslam Əməkdaşlıq Təşkilatı Ermənistan-Azərbaycan münaqişəsinin gündəliyə salındığı bütün qətnamələrində, bir qayda olaraq, Ermənistanı qınayır, Azərbaycanın mədəniyyət abidələrini və ehtiyatlarını məhv edən, Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürən təcavüzkar ölkə adlandırır. Qətnamələrin hamısında işğal olunan torpaqların şərtsiz Azərbaycana qaytarılması, BMT-nin problemlə bağlı qəbul olunmuş bütün qətnamələrinin yerinə yetirilməsi tələbi irəli sürülür.

İslam Əməkdaşlıq Təşkilatının zirvə görüşləri Azərbaycanın haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayaraq, münaqişə ilə bağlı bir sıra sənədlər qəbul etmişdir. 2008-ci ildə BMT-nin Ali Assambleyasının 62-ci sessiyasında "Azərbaycanın işğal olunmuş əraziləri müddəası" barədə qətnamənin qəbul olunmasında İƏT üzvü ölkələrinin mövqeyi həlledici rol oynadı.

***Г.Р.Ширалиева***

# ВОССТАНОВЛЕНИЕ ТЕРРИТОРИАЛЬНОЙ ЦЕЛОСТНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В ПОВЕСТКЕ ДНЯ ОРГАНИЗАЦИИ ИСЛАМСКОГО СОТРУДНИЧЕСТВА (1991-2010-е гг.)

***Ключевые слова:*** *ОИК, армяно-азербайджанский конфликт, международные организации, мусульманские страны, армянская агрессия*

Организация исламского сотрудничества (ОИС) стала первой международной организацией, подтвердившей факт оккупации Арменией азербайджанских территорий и открыто выступившей в защиту Азербайджана. Впервые в истории саммитов ОИС в 1994 году 7-м саммите в Касабланке была принята политическая резолюция по армяно-азербайджанскому конфликту. Во всех своих резолюциях, по отношению армяно-азербайджанского конфликта, Организация Исламского Сотрудничества как правило, осуждает Армению, называя ее страной-агрессором, уничтожающей памятники культуры и ресурсы

Азербайджана, выдвигающей против Азербайджана необоснованные территориальные претензии. В итоговых документах ОИС выдвигалось требование безоговорочного возвращения оккупированных земель Азербайджану, выполнения всех резолюций ООН, принятых в связи с конфликтом.

Саммиты ОИС сыграли важную роль в доведении до мирового сообщества справедливой позиции Азербайджана, и в связи с проблемой был принят ряд важных документов. Позиция стран-членов ОИС сыграла решающую роль в принятии резолюции «Положение на оккупированных территориях Азербайджана», на 62-й сессии Генассамблеи ООН 14 марта 2008 года.

***G.R.Shiraliyeva***

## RESTORATION OF THE TERRITORIAL INTEGRITY OF THE REPUBLIC OF AZERBAIJAN ON THE AGENDA OF THE ORGANIZATION OF ISLAMIC COOPERATION (1991-2010)

***Keywords:*** *OIC, Armenian-Azerbaijani conflict, international organizations, Muslim countries, Armenian aggression*

The Organization of Islamic Cooperation (OIC) has become the first international organization to confirm the fact of the occupation of Azerbaijani territories by Armenia and openly defend Azerbaijan. In 1994, the 7th Summit in Casablanca adopted a political resolution on the Armenian-Azerbaijani conflict for the first time in the history of the OIC summits. The Organization of Islamic Cooperation, in all its resolutions on the Armenian-Azerbaijani conflict, as a rule, condemns Armenia, calling it an aggressor country, destroying cultural monuments and resources of Azerbaijan, putting forward unjustified territorial claims against Azerbaijan. The final documents of the OIC demanded the unconditional return of the occupied lands to Azerbaijan, the implementation of all UN resolutions adopted in connection with the conflict.

The OIC summits played an important role in bringing Azerbaijan's fair position to the world community, and a number of important documents were adopted in connection with the problem. The position of the OIC member states played a decisive role in the adoption of the resolution "The situation in the occupied territories of Azerbaijan" at the 62nd session of the UN General Assembly on March 14, 2008

Sovet ideologiyasının iflasından, Sovetlər Birliyinin dağılmasından sonra demək olar ki, postsovet məkanına daxil olan bütün ölkələr öz milli dəyərlərinə qayıdaraq sivil millətlər ailəsində yerlərini tutmağa çalışırdılar. Dəyərlər toplusunda mühüm mövqe tutan dini etiqadlara qayıdış da bu baxımdan son dərəcə təbii proses idi. Sovet türkdilli ölkələrində, o cümlədən dünya mədəniyyətinə bir sıra dini və mədəni tolerantlıq nümunələri bağışlayan Azərbaycanda da islama maraq son dərəcə artdı. Azərbaycanın Rusiayanın

dəstək verdiyi Ermənistan tərəfdən təcavüzə məruz qaldığı XX əsrin sonlarında informasiya təbliğatı üçün imkanlar son dərəcə məhdud idi. Belə bir vəziyyət təcavüzün ağır nəticələrinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın hüquqi baxımdan haqlı durumunun bəyan edilməsi cəhdləri islam ölkələrinin dəstəyi zərurətini ortaya qoyurdu.

Sovet imperiyası buxovlarından xilas olaraq müstəqilliyə yeni qovuşmuş Azərbaycan Respublikasının tarixi torpaqlarının geri gaytarılması istiqamətində cəhdlərinin İslam Əməkdaşlıq Təşkilatı (İslam Konfransı Təşkilatı 2011-ci ildən belə adlanır) kimi nüfuzlu qurum tərəfindən müdafiəsinə böyük ehtiyac var idi. 1991-ci il dekabr ayında İƏT-nın üzvülüyünə qəbul edilən Azərbaycan bu birlikdən gözlədiyi dəstəyi almaqla yanaşı, nüfuzlu islam ölkələri ilə çoxsahəli qarşılıqlı əlaqələri bərqərar edərək, bu əlaqələrin genişləndirilməsi və inkişafına da nail oldu. Məhz İƏT Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı faktını təsdiq edən, Azərbaycana açıq şəkildə dəstək verən ilk beynəlxalq  qurum oldu.

İslam ölkələrinin birliyi kimi yaranan (1969) İslam Əməkdaşlıq Təşkilatı islam dünyasının ən nüfuzlu təşkilatı olaraq bir sıra beynəlxalq problemlərin həllində mühüm rola malik olmuşdur. Təşkilatın nizamnaməsində arzu edən hər bir müsəlman ölkəsinin birliyə qoşulmaq üçün müraciət hüququ (maddə 8)  əks olunsa da,  İƏT-nin fəaliyyətinə müsəlman olmayan ölkələrin də müşahidəçi qismində maraq göstərməsi sübut edir ki, islam mahiyyəti Təşkilatın çərçivəsini məhdudlaşdırmır, əksinə, daha da genişləndirir [14, s.85].

1991-ci ildə İslam Əməkdaşlıq Təşkilatının nümayəndə heyəti Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli imkanlarını araşdırmaq məqsədi  ilə Azərbaycana gəldi [3, s.131; 5]. BMT, Türkiyə, Rusiya və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilən müzakirələr prosesində Ermənistanın İƏT ilə məsləhətləşmələrə qeyri-konstruktiv münasibət göstərməsi, maneələr yaratması aşkar idi. Belə bir vəziyyət  Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığı faktıını təsdiq edirdi və Təşkilat içində bu barədə vahid, birmənalı yanaşma formalaşdı. Sözügedən münaqişə 1992-ci ildən İstanbul konfransından sonra İƏT-nin siyasi gündəliyinin əsas mövzularından birinə çevrildi, növbəti illərdə isə Azərbaycan Respublikası ilə İƏT arasındakı münasibətlər daha da genişlənərək keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Azərbaycanın ilk dövrdə bu təşkilatda üzvlüyünün əsas məqsədi şübhəsiz ki, erməni təcavüzünün səbəb, məqsəd və nəticələrini dünya ictimaiyyətinin diqqətinə çatdırmaq idi. Sonrakı mərhələlərdə isə Azərbaycan Respublikası ilə İƏT arasında çoxplanlı, qarşılıqlı faydalı münasibətlərin inkişafına daha çox diqqət yetirilməyə başlandı.

İƏT-nin Ermənistana mənfi münasibətindən bəhs edən erməni müəllif Aram Safaryan diqqəti Azərbaycan müsəlmanlarının dini lideri Allahşükür Paşazadənin Şrilankadakı çıxışına yönəldərək, 1992-ci ildə münaqişənin çox

kəskin vaxtında A.Paşazadənin "Azərbaycan xalqına etinasız yanaşma islam dəyərlərini unutmaq deməkdir" barədə müraciətini qeyd edir (13, s.56). Müəllif işğal olunmuş ərazilərdə Azərbaycan xalqının maddi-mədəni abidələrini dağıdan, müsəlman məzarlıqlarını yerlə yeksan edən erməni təcavüzkarlarının bu münaqişəni xristian-müsəlman münaqişəsi kimi qəbul etmədiyini "sübut etməyə" cəhd göstərir və bu səbəbdən də Azərbaycanı haqlı tərəf hesab edən İƏT üzvü ölkələri əsassız olaraq qınayır. Münaqişənin dini zəmin daşımadığını, Ermənistanın islam ölkələri, xüsusilə də İranla yaxın münasibətlərini qeyd edən müəllif Ermənistandan bütün qeyri-ermənilərin qovulduğunu "unudaraq", ermənilərin 70-dən çox ölkədə digər xalqlarla birlikdə yaşadığını önə çəkir (13, s.55). Qeyd edək ki, Qarabağ münaqişəsi ilə əlaqədar Ermənistanı dəstəkləyən Rusiyaya bənzər siyasət yeridən İran İslam Respublikası ilə Ermənistan arasındakı yaxın münasibətlər siyasətçilər və tarixçilər üçün son dərəcə anlaşılandır. Belə ki, sözdə İran İslam Respublikası Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəklədiyini bəyan etsə də, Azərbaycanın Ermənistan üzərində qələbə çalacağı, Türkiyənin regionda nüfuzunun artacağı qorxusunu gizlədə bilmirdi. İranı narahat edən mühüm amillərdən biri də Azərbaycan separatizmidir. Bu ölkədə yaşayan azərbaycanlıların sayını və müstəqil Azərbaycan Respublikasına rəğbətini nəzərə alsaq, İslam Respublikasının qorxusunu anlamaq olar. Azərbaycanın NATO ilə sıx əməkdaşlığı isə İranı daha çox vahiməyə salır, Azərbaycan ərazisində ABŞ hərbi bazaları və silahlı qüvvələrinin yerləşdiriləcəyi fikri ölkə rəhbərliyini daim narahat edir [7, s.17-26; 1, s.125]. Qorxularına, siyasi maraqlarına rəğmən, İran İslam Respublikası islam həmrəyliyi qarşısında təslim olmağa məcburdur və İƏT-nin Azərbaycan Respublikasının ərazi bütövlüyü ilə bağlı qətnamələrinə "lehinə" səs vermək məhkumluğunu da anlayır.

1992-ci ilin sentyabrında BMT-nin növbəti Ali Assambleyasının gedişi zamanı İƏT üzvü ölkələrin xarici işlər nazirlərinin görüşünün nəticəsi olan yekun sənədə erməni-azərbaycan münaqişəsi barədə maddə daxil edilsə də, təəssüf ki, Azərbaycan bu Təşkilat çərçivəsində öz maraqlarını kifayət qədər aydın ifadə edə bilmədi. 1994-cü ilin may ayında Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığındakı səfiri İƏT-nın Baş Katibliyində ölkənin daimi nümayəndəsi təyin ediləndən sonra baş qərargahı Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində yerləşən İƏT, həmçinin İslam İnkişaf Bankı ilə Azərbaycan Respublikası arasında fəal əməkdaşlıq başladı.

Beynəlxalq təşkilatlarda, o cümlədən İƏT-da Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ətrafında müzakirələrin keçirilməsi, Ermənistanın təcavüzkar siyasəti barədə bir sıra qətnamələrin qəbul olunmasında Azərbaycan Respublikasının üçüncü prezidenti (1993-2003) H.Əliyevin gərgin əməyi danılmazdır [9, s.89-92]. 1994-cü ildə ölkə başçısı H.Əliyevin Səudiyyə Ərəbistanına səfəri İƏT ilə gələcək əməkdaşlığın əsasını

qoydu, liderin müqəddəs Kəbəni ziyarət etməsi, həmçinin məhsuldar görüşləri bütün müsəlman ölkələrinin Azərbaycana marağını artırdı. 1994-cü ilin dekabr ayında Mərakeşdə İKT-nin Kasablanka şəhərində keçirilən VII sammitində çıxış edən H.Əliyev işğal olunmuş ərazilərimizdə erməni silahlı qüvvələrinin maddi mədəniyyət abidələrimizi məhv etmələrini iştirakçıların diqqətinə çatdırdı [1, s.33]. Sözügüdən sammitdə İƏT sammitləri tarixində ilk dəfə Ermənistan-Azərbaycan münaqişəsi və Azərbaycan Respublikasına iqtisadi yardım barədə qətnamə qəbul olundu. Həmin ildən başlayaraq BMT ilə müzakirə olunan məsələlər siyahısına mütəmadi surətdə erməni-azərbaycan münaqişəsi də daxil edilməyə başlandı. İƏT-nin Baş Katibliyində, eləcə də üzv ölkələrlə məqsədyönlü fəaliyyətin nəticəsi olaraq qısa müddətdə İƏT-nin gündəliyinə daha iki qətnamə daxil edildi. Bunlardan biri Azərbaycana maliyyə yardımının göstərilməsi, digəri isə erməni təcavüzkarları tərəfindən Azərbaycanın islam mədəniyyətinə aid abidələrinin məhv edilməsi barədə idi. İƏT-nin növbəti sammitində hər iki qətnamə yekdilliklə qəbul edildi.

Azərbaycan Respublikası dövlət rəhbərliyinin gərgin səylərinin nəticəsi olaraq, 1996-cı ilin dekabrında İƏT-nin xarici işlər nazirlərinin Cakartada (İndoneziya) keçirilən 24-cü konfransında sonuncu qətnamənin adı dəyişdirilərək "Ermənistanın Azərbaycana təcavüzü" adı ilə qəbul edildi. Qətnaməyə əsasən, İƏT üzvü olan ölkələr erməni təcavüzünü qətiyyətlə pisləyir, erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal və şərtsiz çıxarılmasını tələb edirdilər. Sənəddə həmçinin üzv ölkələrin qondarma "Qarabağ Respublikası"nda keçirilən seçkiləri tanımadığı, bunun beynəlxalq hüquqa zidd olduğu göstərilirdi. Sözügedən qətnamənin İƏT-nin dövlət və hökümət başçılarının 1997-ci ilin martında İslamabadda keçirilən növbədənkənar konfransında və həmin ilin dekabrında Tehranda keçirilən VIII sammitində də qəbul edilməsi Azərbaycanın haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynadı [6, s.57-58]. İslamabad konfransında qəbul olunan deklarasiyanın 10-cu bəndi Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzkar siyasətini qətiyyətlə pisləyirdi [10, s.262]. Üzv ölkələr Azərbaycan Respublikasının çətin iqtisadi vəziyyətini qeyd edərək humanitar yardım göstərilməsini də zəruri hesab etdilər.

1997-ci il dekabrın 8-də Tehran səfəri çərçivəsində H.Əliyev İKT-nin Baş katibi İzzəddin Laraki ilə görüşdü. Sammitdə çıxışı zamanı 1993-1996-cı illər ərzində Rusiyanın Ermənistana bir milyon məbləğində qanunsuz silah və hərbi texnika göndərməsini vurğulayan ölkə rəhbəri diqqəti Rusiya ilə Ermənistan arasında 1997-ci il 29 avqustda imzalanan hərbi əməkdaşlıq müqaviləsinə yönəltdi [2, s.125; 4, s.166-173].

Təşkilatın 2000-ci ilin 12-13 noyabr tarixlərində Qatarın paytaxtı Doxada və 2003-cü il 16-17 noyabr tarixlərində Putracayada (Malaziyada) keçirilən sammitlərində də Azərbaycanın mövqeyi müdafiə olunmuş, işğal olunmuş

Azərbaycan ərazilərindən erməni silahlı qüvvələrinin çıxarılması, Azərbaycanın ərazi bütövlüyünə hörmət, BMT-nin bu barədə qətnamələrinin (822, 853, 874, 884) yerinə yetirilməsi istiqamətində sənədlər qəbul edilmişdir.

2005-ci ilin 8-9 dekabr tarixlərində müqəddəs şəhər Məkkə müsəlmanların müvəqqəti paytaxtına çevrildi. Fövqəladə sammitdə İƏT-nin 57 üzv ölkəsi, 5 müşahidəçi ölkə, 25 beynəlxalq və regional təşkilat nümayəndələri (o cümlədən BMT və Ərəb Dövlətləri liqası) iştirak edirdi. Sammitdə islam dünyasının bir çox məsələləri geniş çərçivədə müzakirəyə çıxarılmışdı. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin də iştirak etdiyi Təşkilatın III fövqəladə zirvə görüşünün yekun kommunikesində Ermənistan-Azərbaycan münaqişəsinə dair müddəalar da yer aldı.

2006-cı il sentyabrın 11-də İƏT-nin turizm nazirlərinin Bakıda keçirilən V konfransı Təşkilat çərçivəsində Azərbaycanın aktiv fəaliyyətinin göstəricilərindən biri idi. Konfransda çıxış edən Respublika prezidenti İlham Əliyev işğal nəticəsində 1 milyon azərbaycanlının öz topraqlarından qovulmasını humanitar fəlakət, böyük ədalətsizlik adlandıraraq, Ermənistanın bütün beynəlxalq normaları pozduğunu, işğal olunmuş Azərbaycan ərazilərinin boşaldılması barədə BMT-nin 4 qətnaməsinə etinasızlıq göstərməsini diqqətə çatdırmışdı.

İƏT-nin 2008-ci il martın 13-14-də Seneqalda keçən 11-ci sammitində, həmçinin 2008-ci il iyunun 18-20-də xarici işlər nazirlərinin Uqandada baş tutan 35-ci konfransında növbəti dəfə Azərbaycanın maraqlarına cavab verən qətnamələr qəbul edildi. Bu toplantılara aid yekun sənədlərdə bir daha Ermənistanın təcavüzkar məqsədləri qətiyyətlə pislənir, işğal olunmuş ərazilərin dərhal və şərtsiz azad edilməsi tələbi əks olunurdu. Birinci qətnamə İƏT-nin sonrakı sammitlərində əsaslı dəyişikliklər və əlavələrlə qəbul olundu. Məsələn, İƏT xarici işlər nazirlərinin 2009-cu il 23-25 may tarixlərində Dəməşqdə keçirilən 36-cı konfransında "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü" adlı 24 maddədən ibarət qəbul edilən qətnamədə münaqişənin həllinə Ermənistanın qeyri-konstruktiv münasibəti xüsusilə vurğulanırdı.

2009-cu il aprelin 21-də Bakıda İƏT üzvü ölkələrinin hüquq mühafizə orqanları rəhbərlərinin iki gün davam edən konfransı keçirildi. Konfransda çıxış edən Azərbaycan Respublikasının baş nazirinin müavini Abid Şərifov qeyd etdi ki, Azərbaycan torpaqlarının 20 faizi işğal altında olduğu üçün bu ərazilərə nəzarət etmək mümkün deyil. Bu ərazilərdə təşkil olunmuş transmilli cinayətkarlığın inkişafı üçün əlverişli şərait yaradılmışdır və belə bir vəziyyət nəinki Azərbaycana, bütün regiona mənfi təsir göstərir. Bu baxımdan transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə məqsədi ilə ölkələrin hüquq mühafizə orqanlarının fəaliyyətinin regional və beynəlxalq səviyyədə əlaqələndirilməsi zəruridir.

2010-cu ilin may ayında İƏT üzvü ölkələrin xarici işlər nazirlərinin Tacikistanın paytaxtı Düşənbədə keçirilən 37-ci toplantısında Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı Ermənistanın təcavüzkar ölkə adlandırıldığı 3 qətnamə qəbul olundu. Birinci qətnamə siyasi mahiyyətə malik olub islam ölkələrinin gələcək sammitlərində də təkrar-təkrar gündəmə gətiriləcək vacib məsələ idi. İkinci qətnamə erməni təcavüzündən zərər çəkənlərə maliyyə və iqtisadi yardımı nəzərdə tuturdu. Üçüncü qətnamə isə işğal olunan Azərbaycan ərazilərində tarixi islam abidələrinin erməni təcavüzkarları tərəfindən məhv edilməsinə həsr olunmuşdu.

İƏT-nin XI sammitində qəbul olunan yeni nizamnamə xüsusi önəm daşıyır. Belə ki, Azərbaycan nümayəndə heyətinin məqsədyönlü işi və inadlı tələbi nəticəsində təşkilatın əsas məqsəd və məsələləri sırasına ərazi bütövlüyünün bərpası probleminin həllində üzv ölkələrin hüquqları müddəası birmənalı olaraq qeyd edildi. Belə bir müddəanın qəbul edilməsi ölkəmiz üçün müstəsna əhəmiyyətə malik idi və Azərbaycan Respublikasının gələcək xarici siyasətinin müəyyən edilməsində də müsbət təsirə malik oldu. Qeyd etmək lazımdır ki, Azərbaycan nümayəndə heyətinin BMT-nin 62-ci sessiyasına (14 mart 2008-ci il) təqdim etdiyi "Azərbaycanın işğal olunmuş əraziləri müddəası" barədə qətnamənin qəbul olunmasında İƏT üzv ölkələrinin mövqeyi həlledici rol oynadı.

Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı ilə sıx əlaqələrinə diqqət yönəldən erməni müəllif Araks Paşayan "Erməni-Azərbaycan münaqişəsi islam konfransınınn gündəliyində" adlı məqaləsində göstərir ki, bu əlaqələr həddən artıq geniş miqyas almışdır, demək olar ki, hər il Bakıda İƏT çərçivəsində müxtəlif formatlarda görüşlər keçirilir və bu fəallıq İƏT tarixində nadir hesab oluna bilər. Azərbaycanın islam dünyasında nüfuzunun artmasını etiraf edən müəllif bunları Azərbaycan Respublikası prezidenti İ.Əliyevin İƏT və Azərbaycan arasında isti münasibətləri vurğulaması, islam təşkilatının ölkəni narahat edən məsələlərin beynəlxalq səviyyədə gündəmə gətirilməsinə yardım edəcəyinə əminliyi ilə izah edir [15].

Dini mənsubiyyətə görə dövlətləri birləşdirən, bütün islam dünyasını ətrafında toplayan yeganə beynəlxalq təşkilat İƏT [8, s.44; 12, s.28] Ermənistan-Azərbaycan münaqişəsinin gündəliyə salındığı bütün qətnamələrində, bir qayda olaraq, Ermənistanı qınayır, Azərbaycanın mədəniyyət abidələrini və ehtiyatlarını məhv edən, Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürən təcavüzkar ölkə adlandırırdı. Qətnamələrin hamısında işğal olunan torpaqların şərtsiz Azərbaycana qaytarılması, BMT-nin problemlə bağlı qəbul olunmuş bütün qətnamələrinin yerinə yetirilməsi tələbi irəli sürülürdü [11, s.84-85]. İƏT Azərbaycanın işğal olunmuş torpaqlarında erməni təcavüzünü "insanlığa qarşı cinayət" adlandıraraq islam dövlətlərini, həmçinin dünya ictimaiyyətini erməni təcavüzünə son qoymağa, Ermənistana silah və

hərbi qüvvə verməməyə, ərazisindən keçməklə Ermənistana silah və müxtəlif hərbi ləvazimat daşımağa imkan verməməyə çağırırdı. Ermənistanın münaqişəni genişləndirməsinə imkan verməmək üçün nüfuzlu siyasi və iqtisadi vasitələrin işə saılnması barədə müraciətlər də təcavüzkar Ermənistanın cinayətlərini sonlandırmağa istiqamətlənmişdir.

## ƏDƏBİYYAT


1. *Quliyeva S.* İslam Konfransı Təşkilatının Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinə mövqeyinin formalaşmasında H.Ə.Əliyevin rolu (1991-2003) // Diplomatiya aləmi, Bakı, 2010, № 27, s.31-39
2. *Məmmədli Ş.R.* Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının üzvü kimi // Tarix, insan və cəmiyyət, Bakı: ADPU, 2019, 2 (25), s.126-133
3. *Eyyubova S.E.* İslam Konfransı Təşkilatı beynəlxalq münasibətlər sistemində. Bakı: Elm, 2009, 174 s.
4. *Əhmədov A.* Azərbaycan Respublikası və İslam Əməkdaşlıq Təşkilatı: diplomatik münasibətlərdə 20 il // Bakı Universitetinin Xəbərləri, 2011, №3, s.166-173
5. *İbayev V.* İslam Konfransı Təşkilatı. Bakı, 1998, 121 s.
6. *Şirəliyeva G.R.* Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatı ölkələri ilə əlaqələri tarixindən (1993-2003) // Turizm və qonaqpərvərlik tədqiqatları, Bakı: ATU, 2021, №2, s.57-67
7. *Алексеев Н.Н., Бабиров И.М.* Азербайджано-иранские отношения: трансформация внешней политики Азербайджана при президенте И. Г. Алиеве // Конфликтология, 2020, № 3, с.16-28
8. *Кузнецов В.А.* Исламский мир и исламские организации в современной мирополитической системе // Вестник Московского университета. Серия Политические науки, 2013, № 4, с.30-56
9. Миротворческая деятельность Гейдара Алиева в рамках полномочий организации исламской конференции / Azərbaycanşünaslığın aktual problemləri. IV Beynəlxalq elmi konfransın materialları. Bakı, 5-7 may 2015, 440 s.
10. Организация Исламского Сотрудничества и Азербайджан //Азимут научных исследований: экономика и управление, 2016, №2, т. 5, с.261-263
11. Организация Исламского Сотрудничества и ее роль в армяно-азербайджанской нагорнокарабахской проблеме // Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransının materialları. Bakı, 2013, 396 s.
12. ОИК и ОИС как единый международный религиозно-правовой институт // BDU-nun xəbərləri. Sosial-siyasi elmlər seriyası. BDU, 2016, №4, c.28-37
13. *Сафарян А.* Об ожиданиях Армении от председательства Казахстана в Организации Исламского Сотрудничества (попытка политического анализа) “21-й век”, 2011, № 4 (20), s.53-59

14. *Султанов Э.Ш.* ОИК на современном этапе развития // Моск. журн. международного права. 2005, №1, с.82-94
15. *Пашаян А.* Армяно-азербайджанский конфликт в повестке исламской конференции / http://www.noravank.am/rus/issues/detail.php?ELEMENT_ID=1982- müraciət tarixi 03.05.2022

Redaksiyaya daxil olub 01.08.2022